- Şeirin yazılma tarixi: 1987 (Təbriz)
- Bəstənin tarixi: 1987 (Təbriz)
- Şair: Əsğər Fərdi
- Bəstəkar: Rza Rəzəvi

# Yadıma sən düşürsən …

Günəş ətəklərini yığır ulduzlar yanır
üfüqün qucağına nur piyalə calanır
küçələrdə sərgərdan gicələn kölgə kimi
burlağanlar qoynunda görəndə ürəyimi
yadıma sən düşürsən

qulağıma calanır, axır, qəmli sözlərin
taleimə tikilir o nigran gözlərin
vəfalı xəyalınla mən üz - üzə duranda
fikirlər qanadında bir an tək oturanda
yadıma sən düşürsən

güzgümdə, pəncərəmdə hər bir şey səndən deyir
gəzdiyimiz küçələr səni məndən istəyir
indi məndən küsüblər ağaclarda, yollarda
başımıza yağışan oynaq yağış da, qarda
yadıma sən düşürsən

səni unudum deyə yuxulara qaçıram
demək səni görməyə bir pəncərə açıram
gah ilişir gözlərim bir qəmli xatirəyə
gözlərimi yumuram səni unudum deyə
yadıma sən düşürsən.